**Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündəki çıxışında tariximizdə əbədi qalacaq 4 oktyabrda Cəbrayıl şəhərinin işğalçılardan azad edildiyini və bu qələbənin çox böyük məna daşıdığını diqqətə çatdırdı. Vurğuladı ki, bu, Azərbaycan Ordusuna əlavə güc, inam verdi. Bu zəfərdən sonra şanlı ordumuz öz tarixi missiyasını digər yerlərdə də uğurla icra etdi.**

*İkinci Qarabağ müharibəsindəki qələbəmiz tarixi qələbədir. Buna bənzər qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu qələbəni əldə etmək üçün birləşdi, ordumuzun arxasında durdu və ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Xatırladaq ki, Cəbrayıl şəhərinin düşməndən təmizlənməsini Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev keçən il oktyabrın 4-də xalqa müraciətində elan edib. Dövlətimizin başçısı müraciətində həmin gün Cəbrayıl şəhəri ilə yanaşı, rayonun daha doqquz kəndinin – Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Dəjəl, Mahmudlu və Cəfərabadın işğalına da son qoyulduğunu diqqətə çatdırıb.

Cəbrayıl 44 günlük Vətən müharibəsində işğaldan azad edilən ilk rayon olub. Düşmənin təmizlənməsi əməliyyatı nəticəsində Ermənistan ordusunun xeyli canlı qüvvəsi və texnikası məhv edilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva işğaldan azad edilən Cəbrayıl rayonunda oldu. Dövlətimizin başçısı Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan bayrağını ucaltdı. Cəbrayıl rayonu ərazisində yerləşən qədim Xudafərin körpüsünün düşməndən azad edilməsinin və Ali Baş Komandan İlham Əliyevin bu körpüdə Azərbaycan bayrağını ucaltmasının böyük tarixi və siyasi əhəmiyyəti danılmazdır. Çünki xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur simvolumuzdur.

Cəbrayılın azad edilməsi paytaxt Bakı ilə bərabər, bütün ölkədə çox böyük coşqu ilə qarşılandı, Azərbaycan xalqının ruh yüksəkliyini, ordumuzun döyüş ruhunu, əlbəttə, görürük ki, dövlətimizin, xalqımızın nə qədər böyük potensialı var. Çünki ermənilər tərəfindən tamamilə dağıdılmış ərazilərə cəmi bir ildən sonra həyatı qaytarmaq, insanları qaytarmaq böyük potensialdan xəbər verir. Biz bütün gücləri səfərbər etmişik və edəcəyik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək”.

# “Bizim Böyük Qayıdışımız Cəbrayıldan başlamışdır”

da “Cəbrayılın azad olunmasına görə” medalı təsis olunub. Prezident İlham Əliyevin sərəncamı ilə rayonun işğalçıdan azad olunmasında şəxsi igidlik və şücaət göstərən Silahlı Qüvvələrin hərbi qulluqçuları bu medalla təltif ediliblər.

Xatırladaq ki, Cəbrayıl rayonu 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, nəticədə rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəyib. Cəbrayıllı məcburi köçkünlər respublikamızın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, o cümlədən, qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşıblar. Əlli iki min nəfər əhalisi olan,1050 kvadratkilometri əhatə edən rayon ərazisi və bu ərazilərdəki 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd işğal zamanı vəhşicəsinə dağıdılıb. Cəbrayıl rayonundan Qarabağ müharibəsində 362 nəfər şəhid, 191 nəfər əlil olub. Altı nəfər rayon sakini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Ermənilər işğal dövründə Cəbrayıl şəhərini və rayonun kəndlərini xarabalığa çevirib, mədəni, tarixi, dini abidələri, qəbiristanlıqları yerlə bir edib, ekoloji terror törədib.

Cəbrayıl şəhərinin azad edilməsi Azərbaycan Ordusunun şücaətinin nəticəsi idi. Onu da xatırladaq ki, 2016-cı il Aprel döyüşləri zamanı Silahlı Qüvvələrimizin əks hücumu nəticəsində Lələtəpə yüksəkliyi düşməndən təmizlənmiş, Cocuq Mərcanlı kəndi ordumuzun nəzarətinə keçmişdi, Azərbaycan Ordusu yarımçıq qalan işi isə 2020-ci ildə uğurla reallaşdırdı. Beləliklə, Cəbrayıl bütövlükdə azad edildi.

Ötən il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Mehriban xanım Əliyeva işğaldan azad edilən Cəbrayıl rayonuna səfər ediblər.

özünə inamını daha da artırdı. İyirmi yeddi ildən sonra ölkəmiz böyük qələbəyə imza atdı, BMT Təhlükəsizlik Şurasının qətnamələrindən irəli gələn tələbləri Azərbaycan öz ordusunun gücünə həyata keçirdi.

Müharibə başlayandan bir həftə sonra Cəbrayılın azad edilməsi işğalçı Ermənistan ordusunun ilk, ən ciddi və böyük miqyaslı zərbə alması oldu. Nəticədə düşmən ordusunda çox böyük ruh düşkünlüyü, inamsızlıq yarandı. Çünki düşmən 27 il ərzində Cəbrayıl ərazisində çox güclü müdafiə sədləri, səngərlər, bunkerlər inşa etmişdi. Cocuq Mərcanlıya yaxın Mehdili kəndində son bir neçə ildə çox müasir bir bunker də tikilmişdi. Bir sözlə, işğalçı Ermənistan Azərbaycan Ordusunun qarşısını kəsmək üçün bir neçə sədd qurmuşdu. Eyni zamanda, çoxsaylı minalar basdıraraq öz torpaqlarımızı azad etməyimizə bütün vasitələrlə mane olmaq istəyirdi. Amma Azərbaycan Ordusu öz peşəkarlığını nümayiş etdirdi və möhtəşəm qələbə qazandı.

Beləliklə, Vətən müharibəsində düşməndən təmizlənən ilk rayon, məhz Cəbrayıl oldu. Oktyabrın ilk günləri Cəbrayılın bir çox kəndləri müzəffər ordumuz tərəfindən azad edildi, oktyabrın 4-ü isə Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan günlərdən birinə çevrildi: Cəbrayıl şəhəri azad edildi, bütün cəbrayıllıların uzun illik həsrətinə son qoyuldu.

Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündəki çıxışında rayonda məskunlaşmanın tez bir zamanda reallaşması üçün hazırda əməli işlər aparıldığını və artıq bir neçə obyektin təməl daşının qoyulduğunu bildirdi. Dövlətimizin başçısı daha sonra dedi: “Bu gün bir ilə görülmüş işlərə qiymət verərkən,

Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl rayonuna səfəri də bu baxımdan zəngin olub. Belə ki, dövlətimizin başçısı “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının, rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və şəhərdə ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoyub. Bütün bunlarla bərabər, 110/35/10 kV-luq “Cəbrayıl” yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak edib. Prezident İlham Əliyev daha sonra Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Prezident İlham Əliyevin “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlqoyma mərasimində iştirakı bir neçə məqamla diqqət çəkib. Belə ki, ölkə rəhbəri burada Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri Albert Kərimov və “KamAZ” ASC-nin baş direktorunun müavini Rüstəm Şamsutdinovla görüşüb. Görüş zamanı Tatarıstan Respublikasının Baş nazirinin müavini Füzuli Beynəlxalq Hava Limanına endiklərini bildirib və bu hava limanının yüksək səviyyədə yaradıldığını qeyd edib.

Görüşdə vurğulanıb ki, Azərbaycanla Rusiya arasında son illər ərzində strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətləri bütün digər sahələrdə, eləcə də iqtisadiyyatda da uğurla inkişaf edir. Azərbaycan qonşu ölkənin ayrı-ayrı regionları, o cümlədən, Tatarıstan Respublikası ilə səmərəli iqtisadi əməkdaşlıq münasibətləri var. Yük maşınlarının istehsalı üzrə dünyanın aparıcı şirkətlərindən olan “KamAZ”ın Cəbrayılda “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi ilə birgə servis mərkəzinin yaradılması da bunun bariz ifadəsidir.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi torpaqlarımızın işğaldan azad edilməsi kənd təsərrüfatı texnikasına, eləcə də digər texnikalara və texniki xidmətlərə tələbatı artırıb. Bu baxımdan Qarabağ bölgəsində yük avtomobilləri və kənd təsərrüfatı texnikaları üçün “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin yaradılması xüsusi önəm daşıyır.

Qeyd edək ki, “KamAZ”ın regional servis mərkəzinin “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında yaradılması qərara alınıb.

Prezident İlham Əliyevin səfər zamanı Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı da bölgənin inkişafında mühüm rol oynayacaq. Bununla bağlı dövlətimizin başçısına məlumat verilərək bildirildi ki, yaradılacaq sənaye parkı 200 hektar ərazini əhatə edəcək. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələri yaradılacaq.

Sənaye Parkında tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır.

Bu layihənin həyata keçirilməsi bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına böyük təkan verəcək, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

Prezident İlham Əliyevin səfər zamanı açılışında iştirak etdiyi 110/35/10 kilovoltluq “Cəbrayıl” yarımstansiyasına Füzulidəki “Şükürbəyli” yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci “Cəbrayıl” hava xətləri çəkilib. İnfrastrukturun iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-Scada dispetçer idarəetmə sistemi qurulub və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunaraq rəqəmsallaşdırılıb.

“Cəbrayıl” yarımstansiyası, ilk növbədə, bu rayonda yerləşən hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastruktur layihələrini, eləcə də rayonun ümumi şəhərsalma konsepsiyasına əsasən, Cəbrayıl şəhərini və bütövlükdə rayonun bütün kənd-qəsəbələrini elektrik enerjisi ilə təmin edəcək.

Prezident, Ali Baş Komandan İlham Əliyev Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını da edib.

Xatırladaq ki, hərbi hissənin silah və döyüş texnikası arsenalına “Harop” və “Quzğun” zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilib.

Ərazisi 64 hektar olan hərbi hissə kompleksinin təlim şəhərciyində hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi üzrə məşqlərin təşkili, atış poliqonunda müxtəlif cür atıcı və iriçaplı silahlardan atışların keçirilməsi və nəticələrinin qiymətləndirilməsi, şəxsi heyətin mövcud silah və döyüş texnikasından istifadə bacarıqlarının təkmilləşdirilməsinə imkan verən zəruri şərait yaradılıb.

Rayonda 2,6 hektar ərazidə təməli qoyulan və 150 çarpayılıq olacaq Mərkəzi Xəstəxananın ərazisində yoluxucu xəstəliklər korpusu və bir sıra texniki təyinatlı binalar olacaq. Burada rayon sakinlərinə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılacaq.

Dövlətimizin başçısı tərəfindən təməli qoyulan 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəb binasında hər cür inventarla təchiz olunmuş sinif otaqları, fənn kabinetləri fəaliyyət göstərəcək. Bununla yanaşı, tezliklə şəhərdə daha 3 məktəbin tikilməsinə də başlanılacaq.

Cəbrayıl şəhərində10,5 hektar ərazini əhatə edən ilk çoxmənzilli yaşayış məhəlləsi isə mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 5 bina inşa olunacaq və bura 200-ə yaxın ailə, yeni 654 sakin köçürüləcək. Məhəllədə 4, 5 və 6 mərtəbəli yaşayış, o cümlədən digər təyinatlı binalar olacaq. Bu məhəllədə və ümumiyyətlə, şəhərin mərkəzində tikiləcək binaların fasad və eyvanlarına tarixilikləri qorunmaqla, müasir görkəm veriləcək.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***